**Belarusdan idxal edilən dondurulmuş toyuq məhsulunda salmonella aşkarlanmasına dair məlumat**

**(8 aprel 2024)**

Tədbirlər çərçivəsində “Aznur” MMC-nin Belarus Respublikasından idxal etdiyi "Aqrokombinat Dzerjinskiy" MMC-nin istehsalı olan ümumi çəkisi 450 kq dondurulmuş bütöv toyuq məhsulundan Agentlik əməkdaşları tərəfindən nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib. Aparılan sınaq nəticəsinə əsasən nümunələrdə salmonella bakteriyası aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq təhlükəli məhsulun gömrük ərazisinin hüdudlarından kənara çıxarılması və ya məhv olunması barədə qərar qəbul edilib.